2018-ci ilin yanvar-fevral aylarında ev təsər-rüfatlarında sənaye məhsulu istehsalı, habelə hüquqi şəxs yaratmadan fiziki şəxs kimi sənaye sahəsində fəaliyyət göstərənlərin işi də nəzərə alınmaqla 168409 min manatlıq sənaye məhsulu istehsal edilmiş və xidmətlər göstərilmişdir ki, bu da 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,2 faiz çoxdur. Sənaye istehsalının 96,6 faizi malların, 3,4 faizi isə xidmətlərin payına düşmüşdür.

Sənayenin dövlət sektorunda 7491,6 min manatlıq, qeyri-dövlət sektorunda 160917,4 min manatlıq məhsul istehsal edilmişdir.

2018-ci ilin yanvar ayında muxtar respublikanın sənaye müəssisələrində 16112 nəfər işçi çalışmışdır ki, bu da 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,3 faiz çoxdur. Sənaye sahəsində bir işçiyə hesablanmış orta aylıq nominal əməkhaqqı 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,6 faiz artaraq 365,9 manat olmuşdur.